**Aynur CABBAROVA**

*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dissertantı*

# RESPUBLİKA ELMİ PEDAQOJİ KİTABXANASININ STRUKTUR TƏHLİLİNDƏ KİTABXANANIN İNFORMASİYA RESURSLARININ ROLU

***Açar sözlər:*** *Təhsil Nazirliyinin kitabxanalarının elmi-metodik mərkəzi, şöbələrin fəaliyyəti, struktur təhlili, əldə olunan yeniliklər*

***Ключевые слова:*** *Научно-методического центр библиотек Министерства образования, деятельность отделов, структурный анализ, полученные результаты*

***Key words:*** *Scientific and methodological center of Libraries, Ministry of Education, activities of departments, structural analysis, innovations from*

1993-cü ildə ölkənin elmi, sosial-mədəni həyatı üçün çox zəruri olan sahəvi milli kitabxana - Respublika Elmi Pedaqoji Kitabxanası (REPK) təşkil edilmişdir. Azərbaycan Respublikası üzrə elmi-pedaqoji ədəbiyyatın milli kitabsaxlayıcısı, Təhsil Nazirliyinin çoxsaylı kitabxanalarının elmi-metodik mərkəzi funksiyalarını yerinə yetirən, təhsil ocaqlarında çalışan və ya təhsil alan yüz minlərlə oxucunun kitabxanalara olan ehtiyacını vahid istiqamətə yönəldən və ədəbiyyatla təmin edən Respublika Elmi Pedaqoji Kitabxanası yarandığı ilk vaxtlarda 15 yardımçı bölməni özündə birləşdirən 4 müstəqil əsas şöbədən: Elmi-kitabişləmə və komplektləşdirmə, Elmi-məlumat və biblioqrafiya, Oxuculara xidmət və Elmi-metodika şöbələrindən ibarət idi. Bu şöbələrin hər birinin özünəməxsus vəzifələri və iş xüsusiyyətləri var idi. Lazımi şərait olmadığına görə kitabxana öz oxucusunu qəbul edə bilməsə də,



şöbələr öz işlərini elmi prinsiplər əsasında qurmağa müvəffəq olmuşdular.

Təhsil Nazirliyinin "Respublika Elmi Pedaqoji Kitabxanasının işinin təkmilləşdirilməsi haqqında" 3 may 2002-ci il 424 №-li əmrinə əsasən kitabxanada struktur dəyişikliyi aparılmış, yeni nizamnamə hazırlanmış və təsdiq edilmişdir. Bu əmrə əsasən REPK-nın strukturunda dəyişikliklər aparılmış və bir sıra mühüm işlər görülmüşdür. Kitabxanada "Yeni informasiya texnologiyaları" şöbəsi yaradılmış, şöbələrin adlarında və işində dəyişikliklər edilmiş və beləliklə kitabxananın şöbələri aşağıdakılardan ibarət olmuşdur: 1. Oxuculara xidmət; 2. Komplektləşdirmə, elmi kitabişləmə və kitab mübadiləsi şöbəsi; 3. Elmi informasiya və biblioqrafiya şöbəsi; 4. Elmi metodik və təhlil şöbəsi; 5. Yeni informasiya texnologiyaları şöbəsi. Şöbələrin hər biri xüsusi nizamnamə əsasında fəaliyyət göstərirlər.

Kitab, jurnal, qəzet və digər çap məhsullarının qorunub saxlanılması, qəzet və jurnalların cildlənməsi işini həyata keçirən oxuculara xidmət şöbəsi oxuculara kitabxana xidmətini göstərir, onlara oxu zalında, abonementdə, qiyabi və kitabxanalararası abonement vasitəsilə xidmət edir. Yeni ədəbiyyatı seçir, məzmunca köhnəlmiş və istifadəyə yararsız ədəbiyyatı silir, artıq ədəbiyyatı ayırıb mübadilə fonduna verir, az istifadə olunan kitabların isə depozitar fondunu yaradır. Bu şöbə fəaliyyətində oxucuların peşə yönümü üzrə qruplaşdırılmasına da xüsusi diqqət yetirmişdir. Belə ki, oxucular şöbə tərəfindən doqquz qrup üzrə sistemləşdirilmişdir:

Partiya və idarəedici aparatın işçiləri;

Akademiklər

Pedaqoji elmi işçilər. Müəllimlər

Elmi işçilər. Ali məktəb müəllimləri

Ümumtəhsil məktəblərinin müəllimləri və xalq təhsili işçiləri;

Məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələrinin işçiləri

Aspirantlar

Tələbələr

Xarici tələbələr

Digər sahələrin oxucuları.

Kitabxana oxuculara kitabxana-informasiya xidmətini günün tələbləri səviyyəsində təşkil etmək məqsədilə ənənəvi forma və üsullardan istifadə etməklə işində ardıcıl olaraq islahatlar aparır, yeni metodlardan istifadə edir, xidmət prosesini təkmilləşdirir və yeniləşdirir.

Kitabxananın fəaliyyətində komplektləşdirmə, elmi kitabişləmə və kitab mübadiləsi şöbəsinin də rolu böyükdür. Bu şöbə fondu respublikamızda və xarici dövlətlərdə nəşr edilən elmi-metodik, tədris, pedaqoji, ictimai-siyasi və digər sahələrə dair ədəbiyyatla komplektləşdirir. Şöbə kitabları müxtəlif nəşriyyatlardan, kitab satışı müəssisələrindən alır. Çap nəşrlərinin ümumi və fərdi uçotunu təmin edir. Ədəbiyyatı elmi və texniki cəhətdən işləyir. Kitab fondunun təkmilləşdirilməsi üzrə iş aparır, baş kataloqu yaradır.

Kitabxananın son illərdəki nəşriyyat fəaliyyəti də xidmət prosesinin yeniləşdirilməsinə yönəldilmişdir. Kitabxanada aparılan məlumat-biblioqrafiya və informasiya işinin təşkili, biblioqrafik göstəricilərin və tövsiyyə siyahılarının tərtib edilməsi və nəşri oxucular üçün çox böyük məlumat mənbəyinə çevrilmişdir. Bu sahədə kitabxananın elmi informasiya və bibliografiya şöbəsinin rolunu qiymətləndirməmək mümkün deyil. Şöbə Təhsil Nazirliyi aparatının əməkdaşlarına, təhsil işçilərinə, tələbə və şagirdlərə, kitabxananın digər oxucularına informasiya-biblioqrafiya xidmə-



tini təşkil edir, məlumatın çatdırılmasında müxtəlif formalardan istifadə edir, mütəxəssislərin sorğularını operativ ödəyir, məlumat günləri, mütəxəssis günləri, biblioqrafik icmal, tematik sərgilər keçirir, dövrü nəşrlərin kartotekasını yaradır, cari və retrospektiv ədəbiyyatın göstəricilərini tərtib edir.

Elm və təhsilin müxtəlif sahələrinə, ayrı-ayrı elm və maarif xadimlərinə həsr edilmiş belə biblioqrafik vəsaitlər oxucuların elmi araşdırmalarına kömək etməklə yanaşı informasiya daşıyıcısı kimi də onların sorğusunun ödənilməsinə kömək edir. Bunlardan "Dərsdənkənar (sinifdənxaric və məktəbdənkənar) tərbiyə işinin təşkili","Orta məktəblərdə Azərbaycan dili və ədəbiyyatının tədrisi", "Məktəblərdə tərbiyə işinin təşkili", "Məktəbdə estetik tərbiyə", "Məktəblilərin psixologiyasının xüsusiyyətləri və məktəb təliminin problemləri", "Namizədlik və doktorluk dissertasiyalarının avtoreferatlarının biblioqrafik göstəricisi", Mikrodaşıyıcılarda olan "Dissertasiya və elmi-tədqiqat işlərinin göstəricisi", "İllik retrospektiv biblioqrafik göstəriciləri", "Yeni kitablar"ın cari biblioqrafik göstəricisi və s. göstəriciləri həm tarixlik, həm də kitabxananın soraq məlumat aparatının və zəngin fondunun məzmunu və dinamik inkişafı haqqında tutarlı məlumat vermək baxımından əhəmiyyətlidir.

REPK-a fəaliyyətinin 25 illiyi münasibətilə şöbənin əməkdaşları müdriyyətlə birgə 595 sözdən ibarət 3 dildə (Azərbaycan-rus-ingilis) "Kitabxana-biblioqrafiya terminləri lüğəti " nəşr etdirmişdir.

Ölkədə özəl təhsil müəssisələrinin yaradılması, təhsil ocaqlarının sayca çoxalması, təhsil müəssisələrinə elmi-metodik rəhbərliyin vahid mərkəzdən həyata keçirilməsi təhsil sisteminin daha da təkmilləşdirilməsinə zərurət yaratmışdı. Bu məqsədlə möhtərəm Prezidentimiz Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haq-

qında" fərman imzaladı. Bu fərmana müvafiq olaraq tabeçiliyindən asılı olmayaraq respublikanın bütün təhsil müəssisələrinə elmi-metodik rəhbərlik Təhsil Nazirliyinə həvalə edildi.

REPK təhsil sistemində gedən bu dəyişikliklərі və təkmilləşdirməni nəzərə alaraq ümumtəhsil məktəb kitabxabanaları üçün "Əsasnamə" hazırlamış və bu Əsasnamə Təhsil Nazirliyi tərəfindən təsdiq edilərək, respublikanın bütün məktəb kitabxanalarına göndərilmişdir.

Kitabxananın şöbələrindən biri olan elmi metodik və təhlil şöbəsi Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən, ümumtəhsil, peşə məktəbləri və orta ixtisas təhsili müəssisələri kitabxanalarına elmi metodik rəhbərlik edir, onların işini əlaqələndirir, bölgələrdə ezamiyyələrdə olur, konfranslar, seminarlar keçirir, metodik köməklik göstərir, təlimatlar, metodik vəsaitlər, normativ sənədlər hazırlayır. Məktəb kitabxanalarının fəaliyyəti haqqında hesabatlar alır, təhlil edir və kitabxanada yaradılmış Məlumat (Verilənlər) Bazasına daxil edir.

Şöbə "Məktəb kitabxanası işinin planlaşdırılması", "Kiçik yaşlı məktəblilərdə mütaliə mədəniyyətinin formalaşdırılması işinin məzmunu və prinsipləri", "Kitabxana işinə dair normativ aktlar", "Məktəblərdə kitabxanaların texniki təşkilinə aid normativlər", "Məktəblilərə kitabxana xidməti və ədəbiyyatın təbliği", "Valideynlərlə iş", "Kitabxana şurası", "Kitabxana işçilərinin ideya siyasi səviyyəsinin yüksəldilməsi və ixtisasının artırılması", "İki rəqəmli cədvəl", "Siyasi aktuallığını itirmiş, məzmunca köhnəlmiş nəşr materialların kitabxana və məlumat- informasiya fondlarından çıxarılması haqqında", "Məktəb kitabxanalarının manifesti", "I-IV siniflər üçün kitabxana-biblioqrafiya bilikləri proqramı", "Məktəb kitabxanalarında işin təşkili" və s. metodik vəsaitləri tərtib etmişdir.



Təhsil Nazirliyinin "Respublika Elmi Pedaqoji Kitabxanasının işinin təkmilləşdirilməsi haqqında" əmrinə əsasən kitabxanada struktur dəyişikliyi aparılması nəticəsində yaradılan yeni informasiya texnologiyaları şöbəsi də kitabxananın fəaliyyətində mühüm rol oynamış, kitabxana internet şəbəkəsinə qoşulmuş, özünün WEB səhifəsini açmışdır. Dünya kitabxanalarına çıxmaq üçün elektron kataloq yaradılması ən vacib məsələlərdən biri olduğundan kitabxanada lokal kompüter şəbəkəsi yaradılmış, İRBİS 64 "Kitabxanaların Avtomatlaşdırılmış Sistemi"nin nümayiş versiyasında elektron kataloqun əsası qoyulmuşdur. Şöbədə elektron informasiya daşıyıcıları (CD, DVD) toplanmışdır.

REPK təhsilin, təlim-tərbiyə işinin inkişaf etdirilməsinə yaxından köməklik göstərilməsi üçün ümumtəhsil, peşə məktəbləri və orta ixtisas müəssisələri kitabxanalarının fəaliyyəti haqqında 2002-ci ildən Məlumat (Verilənlər) Bazası yaradılmasına başlamış və bunun nəticəsində məktəb kitabxanalarının dinamikası həmişə diqqət mərkəzində olur. Şöbə yaradılmış Məlumat (Verilənlər) Bazası əsasında "Təhsil Nazirliyi sistemindəki ümumtəhsil məktəb kitabxanalarının fəaliyyəti" adlı məlumat kitabını tərtib etmişdir.

REPK-nın bütün əməkdaşları ABŞ səfirliyinin nəzdində fəaliyyət göstərən "Kitabxanaçıların təlim və informasiya" mərkəzində "ingilis dili", "kompüterin əsasları və internet", "avtomatlaşdırma" və digər kurslarda olmuş, sertifikatlar əldə etmişlər. Bundan başqa kitabxananın iki nəfər əməkdaşı "Azərbaycan kitabxana işinin inkişafı assosiasiyası", "Avrasiya fondu və Qafqaz ixtisasartırma" mərkəzinin birgə "Kitabxana işinin aktual problemləri, dünya kitabxana xidməti təcrübəsi, müasir kitabxana informasiya texnologiyası, kitabxana prosseslərinin kompüterləşdirilməsi, kitabxana menencmenti, iqtisadiyyatı, maliyyə işləri"

mövzusunda keçirdiyi kurslarda iştirak etmiş və beynəlxalq sertifikat almışlar.

REPK-a istər oxuculara kitabxana–informasiya xidmətini, istərsə də metodik rəhbərlik işini günün tələbləri səviyyəsndə təşkil etmək məqsədilə ənənəvi forma və üsullardan istifadə etməklə yanaşı işində ardıcıl olaraq islahatlar aparır, yeni metodlardan istifadə edir, xidmət prosesini təkmilləşdirir və yeniləşdirir.

Son illərdə respublikamızda da cəmiyyətin sənəd-informasiya ehtiyacının, o cümlədən ədəbiyyata olan tələbatının daha dolğun şəkildə ödənilməsində və bu işdə informasiya-kommunikasiya texnologiyalarından istifadə sahəsində bir sıra ciddi addımlar atılmışdır. Prezidentin "Azərbaycan Respublikasının kitabxana-informasiya sahəsinin 2008-2013–cü illərdə inkişafı və modernləşdirilməsi" Dövlət Proqramında dünya təhsil sisteminə inteqrasiya olunmaq, ölkə əhalisini informasiyalaşdırılmış cəmiyyətə hazırlamaq məqsədilə kompüter texnikası əsasında qurulan yeni informasiya texnologiyalarının mənimsənilməsi və onun bütün imkanlarından istifadə olunması üçün elektron dərsliklərin, elektron kitabxanaların, rəqəmli tədris resurslarının işlənilib hazırlanması və tətbiqi nəzərdə tutulmuşdur.

REPK-a da bu məqsədlə "Virtual Dərslik Kitabxanası (VDK)" yaradılması məqsədilə layihə hazırlamış və Təhsil Nazirliyinə təqdim etmişdir.

"Virtual Dərslik Kitabxanası"nın əsas iş prinsipi dərsliklərin, metodik vəsaitlərin, sinifdənxaric oxu və yardımçı dərs vəsaitlərinin elektron nəşrlərinin məlumat sisteminin yaradılmasıdır. Layihənin hazırlanmasında məqsəd ilk növbədə Azərbaycan Elektron Təhsil məkanının genişlənməsi və gücləndirilməsinə xidmət etmək idi.

REPK-da 2012-ci ildən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 450s nömrəli 22 dekabr 2008-ci il tarixli sərəncamına əsasən məktəb kitabxanaçılarının yeni informasiya texnologiyalarına yiyələnməsi üçün aşağıdakı mövzularda treninqlər keçirilmişdir.



Yeni informasiya texnologiyalarının əsaslarının öyrədilməsi

İRBİS-64 proqramının öyrədilməsi

REPK-nın Məlumat bazasından (Verilənlər bazası) istifadə qaydalarının öyrədilməsi

ACCESS proqramında Elektron kataloqun yaradılması və istifadəsi qaydaları haqqında məlumat

Bu treninqlərin keçirilməsində REPK-nın bütün şöbələrinin ayrı-ayrılıqda xüsusi rolu olmuşdur.

Beləliklə göründüyü kimi, Respublika Elmi Pedaqoji Kitabxanası respublikamızda gedən geniş təhsil islahatlarında yaxından iştirak edən, təhsil problemlərinə xidmət edən, informasiya cəmiyyətinin yaradılmasında, oxucuların lazımi informasiya ilə təmin olunmasınada xüsusi rola malik olan böyük elmi-metodik mərkəzdir.

## *ƏDƏBİYYAT SİYAHISI:*

1. İsmayilov X.İ. MKS-lərdə metodik təminat işinin təşkili xüsusiyyətləri....// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. - B.: Bakı Universiteti Nəşriyyatı, 2011.-№1.-137 s.

2. İsmayılov X. İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi.- Bakı.: 2000.- 416 s.

3. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- B.: 2006.-312 s.

4. Kitabxana işinə dair normativ sənədlər toplusu /. Respublika Elmi-Pedaqoji Kitabxanası; tərt. R.B.Vəliyev; red. Ü.İ.Məmmədova.-B.: Nərgiz, 2012.-148 s.

5. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı// Kitabxanaşünaslıq və biblioqrafiya.- 2008.- №2, S.7-30.
6. REPK-nın 1983-2012-cü illər hesabatları.
7. Zəngibasarlı M. və b. Respublika Elmi Pedaqoji Kitabxanası.- B.: 1997.- 98 s.

**А. Джаббарова**

## СТРУКТУРНЫЙ АНАЛИЗ РЕСПУБЛИКАНСКОЙ НАУЧНО ПЕДАГОГИЧЕСКОЙ БИБЛИОТЕКИ НА ОСНОВЕ БИБЛИОТЕЧНЫХ ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ

### РЕЗЮМЕ

В статье говорится о нововведениях, полученных в результате проводимых в Республиканской Научно Педагогической Библиотеке структурных изменениях, а также о функционировании библиотеки, как большого научно-культурного центра, деятельность которого посвящена проблемам образования. Здесь также показано значительная роль фактора подготовки проекта по созданию «Виртуальной Библиотеки Учебников» и начало работ по формированию Базы Данных, которая послужит улучшению деятельности школьных библиотек.

**A. Jabbarova**

## LIBRARY INFORMATION RESOURCES STRUCTURAL ANALYSIS OF THE REPUBLICAN SCIENTIFIC PEDAGOGICAL LIBRARY

### SUMMARY

The article is about the Scientific Library of Pedagogic innovations achieved as a result of structural changes, major scientific and cultural center of the library, which serves as the problems of education the activity. Here is shown improvement the operation of the library school libraries (databases), database creation, launching the "Virtual Textbook Library (VDK)" as an important factor in the development of the project on the establishment.